Əliyev İlkin Rafael oğlu, doktorant,
Bakı Biznes Universiteti,
Email: ilkin_aliyev@mail.ru

İNFORMASİYA TEXNOLOGİYALARI AUDİTİ, ONUN YARANMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

İnformasiya texnologiyaları auditi təşkilatın informasiya texnologiyaları infrastrukturunun, siyasətinin və əməliyyatların yoxlanılıb qiymətləndirilməsidir.

İnformasiya texnologiyaları auditorlarının əsas məqsədi müəssisə və təşkilatlarda mövcud qanunvericiliyə nə dərəcədə riayət olunduğunu, biznesin ümumi məqsədəuyğunluq səviyyəsini, və daimi baş verə biləcək İT risklərinin öncədən aşkarlanıb müvafiq strukturların məlumatlandırılmasıdır. Müasir dövrümüzdə İT auditləri təşkilatlarda təkcə fiziki nəzarəti deyil, həm də informasiya təhlükəsizliyini əhatə edir, ümumi biznes və maliyyə nəzarətini həyata keçirir.

Auditin yaranması və müasir bazar iqtisadiyyatındakı rolu.

Audit latınca "audirie", ingilis dilində tərcümədə isə audit (eşitmək, anlamaq, araşdırmaq) sözündən olmuşdur. Bizim dildə mənası isə bir işin qaydalara uyğunluğunu yoxlamaq, təftiş etmək deməkdir. Daxili audit fəaliyyət göstərən hər hansı bir şirkətin və ya təşkilatın fəaliyyətinə nəzarət etməkdən, yoxlamaqdan ibarət bir mexanizmdir.

Müasir bazar iqtisadiyyatı günü-gündən inkişaf etdikcə, iqtisadiyyat rəqəmsallaşdıqca auditin predmetində də bir sıra dəyişikliklər olmuş, auditin əhatə dairəsi də olduqca genişlənmişdir. Belə ki, son 30 ildə iqtisadiyyatın rəqəmsallaşması, ticarət və

xidmət sektorlarının olduqca yüksək sürətlə irəliləməsi müəssisə və təşkilatlarda uçot işinin rəqəmsallaşması, sənəd dövriyyəsinin elektronlaşmasına səbəb olmuşdur. Belə ki, dünya ölkələrində olduğu kimi, ölkəmizdə fəaliyyət göstərən əksər şirkətlərdə uçot və maliyyə işlərinin 95 faizi sənədlər üzərində deyil, kompüterlərdə, bulud texnologiyalarında həyata keçirilir. Rəqəmsallaşmanın, internetə çıxışın son 30 ildə təkcə özəl sektoru deyil, dövlət idarə və təşkilatlarının da fəaliyyətlərində ciddi dəyişikliklərə səbəb olmuşdur. Müəyyən dövlət ödənişlərində, vergi nəzarətində sosial və ictimai sorğuların keçirilməsində rəqəmsallaşma və internetə çıxış olduqca böyük önəm kəsb etmişdir. Lakin bütün bu rəqəmsallaşma internetdə çıxış şəffaflığının təmin edilməsi məqsədi ilə aparılan audit və təftişin də işini müəyyən qədər çətinləşdirmişdir. Məhz bu rəqəmsallaşma, sənəd dövriyyəsinin və maliyyə hesabatlarının elektronlaşdırılması auditin yeni növü olan informasiya texnologiyaları auditinin yaranmasına səbəb olmuşdur.

İnformasiya texnologiyaları, auditin yaranması və inkişafı.

Müasir şirkət və təşkilatlarda əməliyyatlar getdikcə daha çox elektoronlaş-dırıldığından, informasiya ilə əlaqəli nəzarət və proseslərin işlənməsinə nəzarəti məhz İT auditorlar həyata keçirirlər. İT auditorların əsas məqsədləri aşağıdakılardır:

– şirkət məlumatlarının təhlükəsizliyini təmin edən sistemli proseslərin qiymətləndirilməsi;

– şirkətlərin informasiya aktivləri üçün mövcud olan risklərin minimuma endirilməsi üçün müxtəlif təkliflərin irəli sürülməsi;

– informasiya sistemlərində proseslərin mövcud qanunlara, daxili qərarlara və standartlara uyğunluğunu yoxlamaq;

– şirkətlərdə İT bölmələri arasında mövcud kommunikasiya vəziyyətinin öyrənilməsi.

İT auditinin bir sıra növləri vardır ki, bu növlərə əsasən aşağıdakı 5 növü adi etmək olar:

– sistemlər və tətbiqləri-Müəssisə və təşkilatların fəaliyyətindəki əsas sistemlərin və tətbiqlərin nə qədər etibarlı və səmərəli olmasını yoxlamaq və bu etibarlılıq haqqında aidiyyəti orqanlara (şirkət daxili rəhbərliyə) məlumat vermək;

– informasiya emal vasitələri - Bütün proseslərin düzgün işlədiyini yoxlamaq;

– sistemlərin inkişafı - İnkişafda olan sistemlərin təşkilatın standartlarına uyğun olaraq yığıldığını təsdiqləmək;

– İT və müəssisə arxitekturasının idarə edilməsi-İT menecerlərinin strukturlaşdırılması və səmərəli şəkildə işləyib-işləmədiyini yoxlamaq;

– telekommunikasiya - müəssisə və təşkilatlarda şəbəkə ilə bağlı İT təhlükəsizlik məsələlərini araşdırır.

Bütün bunlara nəzər yetirdiyimiz zaman mövcud rəqəmsallaşan iqtisadiyyat şəraitində hər bir müəssisə və təşkilatın daxili auditi qədər, İT auditə də ehtiyacı olduğunu görə bilərik və bu tələb hər gün daha da artmaqdadır. Bütün bu kimi ehtiyacların yaranmasının əsas səbəblərindən biri də gündəlik kibertəhlükəsizlik hallarının daha da geniş vüsət alması olmuşdur.

Dünya ölkələrinin milyardlıq şirkətlərinin son bir neçə ildəki fəaliyyətində nəzər yetirdiyimiz zaman bir sıra iri şirkətlərin məhz İT audit işinin düzgün təşkil edilməməsi səbəbindən milyonlarla dollar vəsait itirdikərini görə bilərik. “Ernest and young”

şirkətinin 2019-cu ildə bir sıra şirkətlər arasında apardığı araşdırmadan da məlum olmuşdur ki, İT audit işinin düzgün qurulmaması səbəbindən ABŞ şirkətlərin dəyən ziyanın miqdarı 15-28 milyon dollar həcmində olmuşdur [3].

Müasir bazar iqtisadiyyatı inkişaf etmək, uğur əldə etmək istəyən hər bir təşkilatı texnoloji yenilikləri təqib etməyə, rəqəmsallaşmağa stimullaşdırır. İnkişaf etmək istəyən hər bir təşkilat, sözsüz ki, informasiya texnologiyalarına sərmayə qoymalıdır. Lakin informasiya texnologiyalarının təşkilatlarda geniş tətbiqi, uçotun internet və proqram təminatı üzərindən aparılması bu proseslərə nəzarəti də müəyyən qədər çətinləşdirmişdir. Bu nəzarəti isə həyata keçirmək məhz İT auditinin əsas vəzifəsidir. İT auditlərin nəzarət etməli olduğu sahələrdən biri də müəssisə və təşkilatlarda sistem istifadəçilərinin səlahiyyətlərinin müəyyənləşdirilməsidir. Belə ki, mövcud şəraitdə İT auditi sistemə giriş icazəsi olan hər bir istifadəçini hansi məlumatları (dataları) əldə etdiyini, nə məqsədlə emal etdiyini daim nəzarətdə saxlamalıdır və bunun üzərində daimi olaraq monitorinqi həyata keçirməlidir [4].

İT auditorlar tərəfindən işin gedişində qarşılaşdığımız hər hansı bir risk zamanı qarşısında əsas 4 sual çıxır. Bu suallar aşağıdakılardır:

1) Bu xəta burda ola bilərmi?
2) Necə?
3) Bu riski aşkarlamaq üçün mövcud təhlükəsizlik tədbirləri bizə kifayət edirmi?
4) Bu çatışmazlıqların aradan qaldırılması tədbirlərini necə inkişaf etdirə bilərik?

Bu suallar müasir dövrümüzdə audit fəaliyyətinin əsas məqsədinin təkcə hər hansı bir nöqsanın aşkarlanmasından ibarət deyil, eyni zamanda baş vermiş nöqsanların yaranması üçün sistemdə olan boşluqlar, bu çatışmazlıqların aradan qaldırılması yollarının da təklif edilməsini özündə əks etdirir.

Müəssisə və təşkilatlarda İT təhlükəsizliyi səbəbindən dəymiş zərərlərin azaldılması məqsədi ilə görülmüş tədbirlərin illər üzrə nisbət qrafiki aşağıda əks olunmuşdur.

Qrafik №1.

İT auditinin qarşılaşdığı təhdidlərinin növləri



İnformasiya texnologiyaları auditinin tənzimlənməsi məqsədi ilə bir sıra audit standartları mövcuddur. Bunlardan bəziləri aşağıdakılardır:

ISO 27000 informasiya təhlükəsizliyi məsələləri üçündür [3].

ISO 27001, oktyabr 2005-ci ildə nəşr olunmuşdur, yaradılma məqsədi "İnformasiya Təhlükəsizliyi İdarəetmə Sisteminin yaradılması və həyata keçirilməsi, əməliyyatı, monitorinqi, saxlanması və yaxşılaşdırılması üçün bir model təmin etməkdir".

ISO 27002, İSO 17799 standartının yenidən adlandırılmasıdır, "Yaradılmış təlimatlar və təşkilat daxilində informasiya təhlükəsizliyinin idarə edilməsi, həyata keçirilməsi, saxlanması və inkişaf etdirilməsi üçün ümumi prinsiplərdir."

ISO 27003 hələ təklif mərhələsindədir, məqsədi İnformasiya Təhlükəsizliyi İdarəetmə Sisteminin həyata keçirilməsində rəhbərlik və köməklik etməkdən ibarətdir.

ISO 27005 informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi standartıdır.

ISO 27006 rəsmi adı ilə "İnformasiya texnologiyaları - Təhlükəsizlik metodları. Informasiya təhlükəsizliyinin idarə edilməsi sistemlərinin auditi və sertifikatlaşdırılmasını təmin edən təşkilatlar üçün tələblər"

Yuxarıda göstərilmiş standartlar arasında ən çox tanınan iki standartdır: İSO 27001 və İSO 27002. Digər ISO 17021, BS7799-3, ISO 24760, ISO 13335 və BS25999 kimi standartlarda bu standartlarla yaxından əlaqəlidir.

Qloballaşdan bazar iqtisadiyyatı, rəqəmsallaşan maliyyə sistemləri müəssisə və təşkilatlarda da maliyyə nəzarəti işinin daha da təkmilləşdirilməsini zəruri etmişdir. İnformasiya texnologiyaları auditinin son 10 ildəki ölkəmizdəki inkişaf dinamikasına nəzər yetirdiyimiz zaman bir sıra ölkələrə nisbətən bizim ölkədə bu inkişafın asta getdiyini görə bilərik. Lakin bu inkişaf tempinin sürətləndirilməsi üçün ölkəmizdə də bir sıra addımlar atılmalıdır. İT auditinin işinin tənzimlənməsi məqsədi ilə qanunvericilikdəki boşluqlar aradan qaldırılmalıdır. Bu sahədə inkişaf etmiş bir sıra ölkələrin (Yaponiya, Koreya, ABŞ, Kanada, Almaniya) təcrübələri öyrənilməli və ölkəmizdə də tətbiq olunmalıdır. Ölkəmizdə fəaliyyət göstərən iri müəssisə və təşkilatlarda İT auditinin tənzimlənməsi istiqamətində tapşırıqlar verilməlidir. İT auditinin ölkəmizdə də geniş tətbiq olunması istiamətində bir sıra stimullaşdırıcı addımlar atılmalıdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Apata J., The Essence of Information System Security and Audit. Retrieved January, 2013.
2. Ernest and Young şirkətinin aparıdığı araşdırma, 2015.
3. ISO, The ISO 27000 Directory, 2010, Retrieved, 2011.
4. Yunisov Tural - Kompüter sistemlərində informasiya təhlükəsizliyi auditinin aparılması üsulları.
5. Örənay H., 2005.